# B İ L D İ R İ Ş

**Müəssisə və təşkilatların nəzərinə!**

Məlumat üçün bildirilir ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın 5.2.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsi kollegiyasının 2020-ci il 16 dekabr tarixli 9/7 nömrəli qərarı ilə "Sənaye məhsullarının statistik təsnifatı, 2019" təsdiq edilmiş və Azərbaycan Standartlaşdırma İnstitutunun 2021-ci il 07 aprel tarixli 212323400037 nömrəli əmri ilə təsdiq edilərək dövlət standartı kimi qeydiyyata alınmışdır. Təsnifatın elektron versiyası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində (https://www.stat.gov.az/menu/5/classifications/source/Senaye_st.pdf) yerləşdirilmişdir.

"Rəsmi statistika haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən Azərbaycan Respublikası ərazisində məlumatların mübadiləsini aparan bütün hüquqi və fiziki şəxslər aidiyyəti rəsmi statistika hesabatlarının təqdim edilməsi zamanı yuxarıda adı çəkilən statistik təsnifatdan istifadə etməyə borcludurlar.

Təsnifatla bağlı hər hansı sual yaranarsa Dövlət Statistika Komitəsinin Keyfiyyətin idarə edilməsi və metaməlumatlar şöbəsi ilə (telefon: 377 10 70, 22-56) əlaqə saxlaya bilərsiniz.